"Təhsilin əsasları" fənninin mütəxəssislərin iştirakı ilə ilk müzakirəsindən ötən müddətdə bir çox təklif və tövsiyələrin nəzərə alındığını qeyd edən təhsil naziri Misir Mərdanov dərsliyin məzmun xətləri və dərs saatlarının bölgüsü barədə fikirlərini bildirib. İlk mərhələdə bu fənnin pilot layihəsi kimi 3 ali məktəbdə - Azərbaycan Müəllimlər İnstitutunda, Azərbaycan Dövlət Pedaqoji Universitetində və Gəncə Dövlət Pedaqoji Universitetində keçiriləcəyini söyləyən nazir ayrı-ayrı dərs materiallarının daha da təkmilləşdirilməsinin, ali məktəb müəllimləri üçün nəzərdə tutulan 10 günlük treninqlərə ciddi yanaşılmasının zəruri olduğunu vurğulayıb. Təhsil naziri deyib ki, "Təhsilin əsasları"nı tədris edəcək müəllimlər üçün keçiriləcək treninqlər fənnin məzmununun əsas istiqamətlərinin və müasir təlim texnologiyalarından istifadə vərdişlərinin mənimsənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Sonra dərs vəsaitinin məzmun xətlərinin praktik xarakter alması üçün müvafiq işçi qrupunun apardığı dəyişikliklərdən bəhs edən təqdimat məruzəsi ətrafında fikir mübadiləsi aparılıb, mütəxəssislərin dərs vəsaitinin müxtəlif cəhətləri haqqında təklif və tövsiyələri dinlənilib.